*Global Spectrum of Research and Humanities*
*ISSN: 3007-9136*
*Vol. 2 No. 3 (2025): Summer*

# Mədəniyyət və dilin müasir dövrdəki inkişafı və qarşılıqlı təsiri

[1] **Elburus Veliyev**

https://doi.org/10.69760/gsrh.0203025009

**Abstract:**
This article explores the dynamic relationship between language and culture in the modern era. Language is not only a medium of communication but also a key carrier of cultural values, traditions, and identity. It plays a vital role in preserving and transmitting both tangible and intangible aspects of heritage across generations. The paper examines how language reflects cultural norms and how cultural changes influence linguistic development. Through historical and theoretical perspectives, the study highlights the interdependence of language and culture, emphasizing their collective role in shaping human society.

**Keywords**
*language, culture, communication, tradition, identity*

**Xülasə**
Dil və mədəniyyətin insan həyatında rolu böyükdür. Dil insanların mədəni həyatda istifadə etdikləri ən unikal vasitədir. Cəmiyyətin bir-biri ilə əlaqə saxlaması, ünsiyyət yaratması dil vasitəsi ilə həyata keçirilir. Dil ünsiyyət vasitəsi olmaqla yanaşı, həm də mədəniyyətin daşıyıcısıdır. Dilə ictimai bir hadisə olaraq əlaqə saxlamaq üçün nəzərdə tutulan bir proses kimi baxılmamalıdır. Dilin xalqın adət-ənənələrinin gələcək nəsillərə ötürülməsində, maddi və mənəvi dəyərlərin öyrənilməsindəki rolu danılmazdır. Dilin mədəniyyətlə əlaqəsi, tarix boyu geniş şəkildə tədqiq edilmiş və müxtəlif tədqiqatçıların diqqətini cəlb etmiş bir mövzudur. Bu münasibət, bir çox nəzəriyyə və fəlsəfi ideyaların meydana çıxmasına səbəb olmuşdur. Dil və mədəniyyət arasındakı qarşılıqlı əlaqənin öyrənilməsi, həm dilçilik, həm də antropologiya sahələrində müzakirələrə yol açmışdır. Bu kontekstdə, "dil mədəniyyətdir yoxsa mədəniyyət dildir" sualı, dil və mədəniyyətin bir-birini necə formalaşdırdığı və ya birinin digərinə necə təsir etdiyi məsələsini ortaya qoyur.Bu baxımdan, dil və mədəniyyət arasındakı qarşılıqlı əlaqə cəmiyyətin sosial strukturu və inkişafı üçün əsas təməl daşıdır. Məqalədə dil və mədəniyyətin qarşılıqlı olaraq bir-birinə təsiri ətraflı olaraq araşdırılmış, bu mövzuya yenidən müraciət edilməsinə ehtiyac olduğu göstərilmişdir.

**Açar sözlər:**
*Dil, mədəniyyət, mədəni əlaqələr, ünsiyyət, cəmiyyət*

[1] Vəliyev, E. PhD in Philology, Associate Professor, Nakhchivan State University. Email: elburusveliyev79@gmail.com. ORCID: https://orcid.org/0009-0002-1462-305X.
https://creativecommons.org/licenses/by-nc-nd/4.0

Dil insan düşüncəsinin ortaya çıxmasında, təfəkkürün formalaşmasında mühüm rol oynayır. Dil insanın düşüncələrini ifadə etməsi, ünsiyyət yaratmasına və dünya görüşünün hamı tərəfindən anlaşılmasına əhəmiyyətli dərəcədə təsir edir. İnsanın daxili aləminin eləcə də şüuraltı düçüncəsinin ortaya çıxaran dil həmçinin onun mədəni əlaqələrinə də təsir göstərmiş olur. İctimai hadisə olaraq insanların hər hansı vasitə ilə ünsiyyət yaratması, onda yeni təcrübələrin yaranmasına şərait yaradır. Bu vasitələr istər yazılı istərsə də şifahi olaraq ortaya çıxa bilər. Qəzət, jurnal, kitab oxumaq, danışmaq, məktublaşmaq, elektron internet vasitəsilə yazışmaqla ola bilər. Cəmiyyətdə bu təcrübələr artdıqca insan düşüncələrini, fikirlərini, hər hansı bir vasitə ilə hamıya çatdırmaq istəyir ki, bu da dil vasitəsilə həyata keçirilir. Dil və mədəniyyətin barəsində mövzunu daha dəqiq başa düşmək üçün hər iki məsələyə ayrılıqda baxmaq lazımdır.

Mədəniyyət çoxsahəli geniş bir anlayışdır. Mədəniyyət insanların təbiətə, cəmiyyətə qarşı münasibətində yaranmışdır. İnsanlar yaşadıqca əmək münasibətləri inkişaf etmiş və yeni mədəni formaların əmələ gəlməsinə şərait yaranmışdır. Tarixən mədəni abidələrin yaranması, mədəni varlıqların gələcək nəsillərə ötürülməsi və bu ənənənin yaşaması üçün insanlar daima fəaliyyət göstərmişlər. Mədəniyyətin inkişafı tarix boyu dəyişkən olmuş və bu inkişaf, mədəniyyətin şaxələnməsinə və yeni nailiyyətlərin yaranmasına səbəb olmuşdur. Mədəniyyətə verilən təriflər, cəmiyyətin həyatını, düşüncə tərzini, dəyərlərini və adət-ənənələrini əhatə etmişdir. Max Weber, Clifford Geertz, Franz Boas, Karl Marx, Antonio Gramsci, və Raymond Williams kimi alimlər mədəniyyətlə bağlı fərqli yanaşmalar irəli sürmüşlər.

Edvard B. Teylor mədəniyyəti "insanın əldə etdiyi bütün bilik, inam, incəsənət, qanun, ənənə və cəmiyyət üzvlərinin bacarıqları və vərdişləri" kimi tərif etmişdir. Teylorun bu təyini mədəniyyətin sosial, zehni, mənəvi və praktiki sahələrini əhatə etdiyini vurğulamış və antropologiyada mədəniyyət anlayışının əsasını təşkil etmişdir. Bu yanaşma, mədəniyyəti yalnız yüksək incəsənət və ya sənət kimi deyil, cəmiyyətin gündəlik həyatına və dəyərlərinə daxil olan geniş bir fenomen kimi görməyə imkan verir.

A.Qurbanov mədəniyyət haqqında danışarkən onun iki formada ortay çıxdığını qeyd edir: maddi və mənəvi mədəniyyət (1, 223). Maddi mədəniyyət dedikdə inşaların fiziki əməklərinin nəticəsində meydana gələn mədəniyyət nümunələri nəzərdə tutulur. İnsan düşüncəsinin məhsulu olaraq ortaya çıxan elm, ədəbiyyat və incəsənət nümunələrini mənəvi mədəniyyətə aiddir.

Müasir dövrdə dil və mədəniyyətə dair aparılan araşdırmalar, antropoloji və sosiolinqvistik yanaşmalar, mədəniyyətlərarası ünsiyyət, tərcümə və dil öyrətmək sahələrindəki tədqiqatlar bu iki sahə arasındakı əlaqəni daha da inkişaf etdirmişdir. Bu sahələr arasındakı qarşılıqlı təsir, dilin mədəniyyətin ifadəsi və formalaşması ilə necə bağlı olduğunu daha dərindən anlamağa imkan yaratmışdır. Eyni zamanda, mədəniyyətlərin dil vasitəsilə necə paylaşılmaq və tərcümə edilə biləcəyini araşdıran tədqiqatlar, dilin və mədəniyyətin qlobal və yerli kontekstdə qarşılıqlı əlaqələrini daha geniş bir perspektivdə öyrənməyə şərait yaratmışdır. Dilin yalnız ictimai hadisə olaraq deyil, eyni zamanda mədəni bir hadisə olaraq araşdırılması, dilin cəmiyyətdəki rolunun daha geniş və dərin bir şəkildə anlaşılmasına səbəb olmuşdur. Dilin mədəni mənalarını və

kontekstini nəzərə almaq, yeni təcrübələrin yaranması üçün vacib bir zəmin yaratmışdır. Dilə sadəcə ictimai konteksdə yanaşmaqla kifayətlənməyib, onu mədəni məna daşıyan kontekstlə əlaqələndirmək, dilin müxtəlif sosial və mədəni fenomenlərlə necə əlaqələndiyini anlamağa imkan verir. Bu yanaşma, dilin cəmiyyətin düşüncə tərzini, dəyərlərini və dünyagörüşünü əks etdirmə qabiliyyətini daha yaxşı başa düşməyə şərait yaradır və bu sahədə ümidverici nəticələrə gətirib çıxarır. Lakin bu inkişafın bir çox problemli cəhətləri də üzə çıxmış olur. Deyilənlərə razılaşsaq "dili mədəniyyəti yaradır", "dil mədəniyyətdir, mədəniyyət isə dildir", "dil və mədəniyyət ayrılmazdır", "dil və mədəniyyət bir-biri ilə sıx bağlıdır" sözləri ilə birmənalı olaraq bu məsələyə yanşmış olarıq.

Bu gün dil və mədəniyyət mövzusu yalnız dilçilərin deyil, həm də mədəniyyət, incəsənət, ədəbiyyat, fəlsəfə, psixologiya və bir çox digər sahələrin tədqiqatçılarının maraq dairəsinə daxil olmuşdur. Hər bir sahə öz baxış bucağından dil və mədəniyyət arasındakı əlaqəni araşdırır və bu sahələrdə aparılan tədqiqatlar yeni elmi əsərlərin və nəzəriyyələrin yaranmasına səbəb olur. Mədəniyyətin dil ilə əlaqəsini araşdırarkən, bu iki sahənin bir-biri ilə qarşılıqlı əlaqəsi onların daha mükəmməl şəkildə inkişafına təkan verir. Dil, xalqın adət-ənənələrini, dünya görüşünü və milli düşüncəsini əks etdirən bir vasitə olaraq mədəniyyətin ifadəsi və daşıyıcısı rolunu oynayır. Bu baxımdan, dilin sosial və mədəni həyatın müxtəlif aspektlərini nümayiş etdirməkdəki rolu, həmçinin cəmiyyətin kollektiv yaddaşını və mədəni irsini qorumaqda əhəmiyyətli yer tutur.

Sosiolinqvist J.A.Fishman dil və mədəniyyətin qarşılıqlı əlaqəsini dərindən öyrənmiş və bu münasibəti daha yaxşı anlamaq üçün dilin mədəniyyətdəki rolunu üç fərqli istiqamətdə təhlil etmişdir. Onun bu üç əsas yanaşması, dilin mədəniyyətdə necə bir yer tutduğunu və mədəniyyətin özünün dil vasitəsilə necə formalaşdığını anlamağa kömək edir.

1. Mədəniyyətin bir hissəsi kimi dil
2. Mədəniyyətin göstəricisi kimi dil
3. Mədəniyyətin simvolu kimi dil

Fishmanın bu yanaşmaları, dilin yalnız sadə bir kommunikasiya vasitəsi olmadığını, həm də mədəniyyətin formalaşmasında və qorunmasında necə vacib bir rol oynadığını göstərir. Hər bir cəmiyyətin dili, onun mədəniyyətini daşıyan və inkişaf etdirən bir amil kimi fəaliyyət göstərir. Bu münasibəti başa düşmək, dilin sosial, tarixi və mədəni kontekstini daha dərindən anlamağa imkan verir.

Dil və mədəniyyətin öyrənilməsi sahəsində C.Kramşın özünəməxsus yanaşması olmuşdur. C.Kramşın, dil və mədəniyyət arasındakı əlaqəni öyrənərkən, dilin mədəniyyətin necə ifadə olunduğunu və onunla necə əlaqəyə girdiyini üç əsas istiqamətdə analiz etmişdir. Kramşının bu yanaşmaları, dilin mədəniyyətlə necə əlaqələndiyini və hər iki anlayışın necə qarşılıqlı təsir etdiyini anlamağa kömək edir. C.Kramş dil və mədəniyyəti 3 istiqamətə yönəltmişdir: *Dil və Mədəniyyət* (1998a: 3)

• dil mədəni reallığı ifadə edir;

• dil mədəni reallığı təcəssüm etdirir;

• dil mədəni reallığı simvollaşdırır.

C.Kramşın bu üç yanaşması, dilin mədəniyyətlə əlaqəsini müxtəlif aspektlərdən göstərir və onun mədəniyyətin yalnız bir təmsilçisi və ifadəçisi deyil, həm də onun formalaşmasında və saxlanmasında mühüm bir amil olduğunu vurğulayır. Dil, cəmiyyətin necə düşünəcəyini və necə davranacağını müəyyən edən mədəni reallığı sadəcə göstərmir, eyni zamanda onu inkişaf etdirir və simvollaşdırır. Bu yanaşmalar dilin mədəniyyətlə sıx əlaqəsini və hər iki anlayışın bir-birini necə təsir etdiyini daha dərindən anlamağa imkan verir.

Ümumi mədəniyyət anlayışı insan üçün ümumi olan, insanlığı təbiətdən və bütün canlı varlıqlardan fərqləndirən şeylə əlaqədardır. Deməк olar ki, mədəniyyətlərin müxtəlifliyi və onların bir-birinə uyğunsuzluğu nə qədər çox vurğulanırsa, hər şeyə rəğmən, bütün bəşəriyyətə aid olan bir konsepsiyaya ehtiyac bir o qədər çox olur. Ümumi mədəniyyət anlayışı belə bir fikrə səbəb ola bilər ki, hər yerdə və hər zaman yalnız bir mədəniyyət var, yəni insan mədəniyyəti. Bauman, insanın ümumi mədəniyyətinə xas olan şeyləri müzakirə edir və aşağıdakı nəticəyə gəlir:

Karen Risager, dil və mədəniyyətin qarşılıqlı əlaqələrini təhlil edərkən, mədəniyyətin fərdi, kollektiv və estetik konsepsiyalarına dair çox mühüm fikirlər irəli sürmüşdür. Risagerin bu sahədəki yanaşmaları, dilin və mədəniyyətin sosial, fərdi və estetik yönlərini daha dərindən başa düşməyə kömək edir. O, mədəniyyətin bu üç fərqli konsepsiyasını bir-biri ilə əlaqəli şəkildə təqdim edərək, dilin mədəniyyətlə necə qarşılıqlı əlaqədə olduğunu və mədəniyyətin müxtəlif səviyyələrini izah etmişdir.

1. Fərdi mədəniyyət anlayışı:

2. Mədəniyyətin kollektiv konsepsiyası:

3. Mədəniyyətin estetik konsepsiyası:

Risagerin yanaşması bu üç konsepsiyanın bir arada işlədiyini göstərir. Fərdi mədəniyyət, kollektiv mədəniyyətin və estetik mədəniyyətin müəyyənləşdirdiyi təcrübələrdən təsirlənir, eyni zamanda onları formalaşdırır. Risagerin bu konsepsiyalar üzrə fikirləri, mədəniyyətin çoxqatlı və kompleks bir fenomen olduğunu və dilin bu fenomeni anlamaqda necə mühüm rol oynadığını vurğulayır. D.Everettin Braziliyada Piraha qəbiləsinə etdiyi səyahət onun dünyagörüşündə və düşüncələrində əsaslı dəyişikliklərə səbəb olmuşdur. Piraha xalqının dil və mədəniyyəti, onda dilə və mədəniyyətə yanaşmada tamamilə fərqli bir baxış bucağının formalaşmasına gətirib çıxarmışdır. D.Everett müşahidə etmişdir ki, Piraha dilində klassik anlamda qrammatik qaydalar, rəqəmlər, rəng adları və zaman formaları mövcud deyil. O, bu dilin dünya dilləri arasında istisna təşkil etdiyini və Noam Çomskinin məşhur "universal qrammatika" nəzəriyyəsi ilə ziddiyyət təşkil etdiyini irəli sürmüşdür. Everettin bu fikirləri dilçilik sahəsində böyük rezonans doğurmuş, bəzi alimlər tərəfindən dəstəklənsə də, bir çoxları tərəfindən tənqid edilmişdir. Pirahã dili və onun arxasında

dayanan mədəniyyət yalnız elmi mübahisələrə deyil, həm də Everettin şəxsi düşüncə və dini inanc sistemində köklü dəyişikliklərə səbəb olmuşdur. D.Everett insan təcrübəsinə və mədəniyyətə bağlı olaraq dilin necə formalaşa biləcəyini, bioloji əsaslardan olmadan inkişaf edəcəyini və sosial ehtiyaclardan yarandığını vurğulayır.

Nəticə

Dil və mədəniyyətin qarşılıqlı təsiri barədə belə bir nəticəyə gəlmək olar ki, mədəniyyət inkişaf etdikcə, onunla əlaqəli olan sahələrin hər biri özlüyündə irəliləyəcəkdir. Bu qarşılıqlı təsir, cəmiyyətin sosial, iqtisadi və texnoloji inkişafı ilə birbaşa əlaqəlidir və hər bir sahənin dinamikası bu dəyişikliklərdən təsirlənəcəkdir. Ümumiyyətlə, cəmiyyətin və insanın varlığı, mədəniyyətin və dilin qarşılıqlı təsiri ilə birgə inkişaf edəcək, bu da onların hər birinin genişlənməsinə və daha da təkmilləşməsinə səbəb olacaqdır. Çünki cəmiyyətin inkişafı bu sahələrin dəyişməsinə daim təsir etmiş və etməyə davam edəcəkdir. Bu dəyişikliklər, yeni tədqiqatların aparılmasına və hər bir sahədə daim yeni kəşflərin meydana gəlməsinə təkan verəcəkdir. Bu proses, həm mədəniyyətin, həm də dilin daha dərindən başa düşülməsi və onların qarşılıqlı əlaqələrinin daha ətraflı araşdırılması üçün mühüm bir zəmin yaradacaqdır.

**Ədəbiyyat siyahısı**

Afad Qurbanov. Ümumi dilçilik. III cild (3 cilddə). Bakı, 2019, 512 səh.

Babazade, Z. (2025). Literary-Critical View of the Prominent Azerbaijani Scholar M.F. Akhundzada: the First Systematic Examples of Literary Theory. *Acta Globalis Humanitatis Et Linguarum*, *2*(2), 38-42. https://doi.org/10.69760/aghel.02500203

Babazadə, Z., & Qənbərov, M. (2025). Specific Aspects of the Motif of Immortality in Literature. *Acta Globalis Humanitatis Et Linguarum*, *2*(2), 215-222. https://doi.org/10.69760/aghel.025002114

D.Everet, *"How Language Began"*

D.Everet, *“Don't Sleep, There Are Snakes”*

Kramsch, CJ (1993). *Dil tədrisində kontekst və mədəniyyət* . Oxford: Oxford University Press.

Kramsch, CJ (1998). *Dil və Mədəniyyət* . c

Risager, K. (2006). *Dil və Mədəniyyət: qlobal axınlar və yerli mürəkkəblik* .

Veliyev , E. (2025). The Impact of Modern Technologies on the Development of the Azerbaijani Language. *Global Spectrum of Research and Humanities* , *2*(2), 123-127. https://doi.org/10.69760/gsrh.010120250040

Veliyev, Elbrus. "Azerbaycan-Türk Dilinin Lügat Terkibinin Zenginleşmesinde Morfoloji ve Sentaktik Usulün Rolü." *Recep Tayyip Erdoğan Üniversitesi Fen-Edebiyat Fakültesi Türk Dili ve Edebiyatı Dergisi* 3.1 (2022): 39-45.

Mahmudova, Y. G. (2022). Uygarlik Kavramlari: Sürdürülebilir Gelişme, Yüzleşme, Universeum, Pluversium, Metauygarlik. *TURAN-SAM*, *14*(53), 304-319.

Camalov, M. (2019). Dinin sosial xarakterinə təsir edən faktorlar və dini ekstremizm. *Din Araşdırmaları Jurnalı*, *2*(3), 7-26.

Received: 02.04.2025
Revised: 06.04.2025
Accepted: 10.04.2025
Published: 18.04.2025